**İradə BAYRAMOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi***
***Tarix üzrə fəlsəfə doktoru***
***irade8@mail.ru***

# MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİNDƏ BİBLİOQRAFİK FƏALİYYƏTİN MÜASİR VƏZİYYƏTİ (GƏNCƏ ŞƏHƏR MKS-İN NÜMUNƏSİNDƏ)

***Xülasə:*** *Məqalədə Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin fəaliyyəti analiz edilir (Gəncə şəhər MKS-in nümunəsində).Eyni zamanda əhalinin intellektual və mədəni inkişafının artırılmasında kitabxanaların rolu müzakirə olunur.*

***Açar sözlər:*** Kitabxana-informasiya təminatı; informasiya resursları; kitabxana fondu.

**Giriş:** Ölkəmizdə kitabxana quruculuğunun müasir mərhələsinin qanunauyğunluqlarına müvafiq olaraq kitabxanaların funksiyaları mürəkkəbləşmiş, cəmiyyətin həyatında informasiya işinin ümumi sistemində onların rolu yüksəlmişdir. Bununla əlaqədar olaraq kitabxanalar qarşısında yeni-yeni tələblər qoyulmuşdur.

Kitabxana fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır. Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş,onun tələbatını ödəmiş,sifarişini yerinə yetirmişdir.

Beləliklə, kitabxanaların yaranması, formalaşması, inkişafı,fəaliyyəti və cəmiyyətdə tutduğu mövqe bilavasitə,onu yaradan cəmiyyətlə bağlıdır (1).

Hazırda kitabxanalar fəaliyyət göstərdiyi ərazidə elm və mədəniyyət sahəsində dünya prosesləri haqqında mühüm informasiya institutu kimi çıxış edir. Onlar milli mədəniyyətin qorunması, bilik və kommunikasiyaların ən mürəkkəb təmizlənmiş formalarının mövcudluğunu təmin edirlər. Biblioqrafik fəaliyyət sahəsində mühüm həlledici yeri olan MKS-lər zəngin, universal kitab fonduna malik olan ən böyük şəbəkədir. Onlar respublikamızın bütün regionlarında əhaliyə biblioqrafik informasiya xidməti həyata keçirən geniş oxucu dairəsinə malikdir. Bu gün MKS-lərin xidmətindən istifadə etməyən idarə və ya müəssisə, təşkilat, elm və texnikanın müəyyən sahəsində fəaliyyət göstərən şəxs tapmaq çətindir.

Cəmiyyət inkişaf etdikcə, onun strukturunda ciddi dəyişikliklər baş verdikə, cəmiyyət üzvlərinin mədəni səviyyəsi yüksəldikcə ixtisaslı, hərtərəfli inkişaf etmiş oxucuarın sayı çoxaldıqca kütləvi kitabxnaların qarşısında daha mühüm vəzifələr dayanır (3).

MKS-lər cəmiyyətin informasiya təminatında iştirak etməklə, dövlətin bütün sahələrdə apardığı siyasətin müvəffəqiyyətlə yerinə yetirilməsində əsas müəssisələrdən biridir. MKS-lər öz fəaliyyətində Azərbaycan Respublikasının

Konstitusiyasını, "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Resp ublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnaməni, Nazirliyin əmr, qərar, sərəncam və mədəniyyət idarəsinin əmr,qərar,sərəncam və digər normativ hüquqi aktları, habelə bu Əsasnaməni rəhbər tutur(7).

**Məsələnin qoyuluşu:** MKS-lərin fondu zəngin universal kitab fonduna malik olan ən böyük şəbəkədir.Bu kitabxanaların fondlarının universal olması, oxucu kateqoriyalarının ümumtəhsil və ixtisas sorğularının ödənilməsi üçün əlverişli olmasını təmin edir. MKS-də kitabxana katoloqlarının yenidən qurulması, məlumat fondlarının təşkili, filiallara köməklik göstərmək, əhaliyə biblioqrafik informasiya xidmətinin forma və metodlarını daha da yaxşılaşdırmaq üçün xüsusi ilə metodika-biblioqrafiya şöbəsinin fəaliyyətini qeyd etmək lazımdır. Bu şöbələr biblioqrafik fəaliyyəti tənzimləməklə,kataloq və kartotekaların yaradılmasına,soraq biblioqrafik nəşrlər fondunun təşkilinə nəzarət edir. MKS-də informasiya texnologiyalarının tətbiqi onların bazasında elektron-informasiya mərkəzlərinin yaradılması,ənənəvi informasya mənbələrinin elektron informasiya daşıyıcılarına köçürülməsi işlərinin həyata keçirilməsi də tədricən həyata keçirilir.

MKS-lər ayrılıqda deyil,bir-biri ilə əlaqəli,vahid bir sistem kimi fəaliyyət göstərir. İnformasiya texnologiyalarının biblioqrafik proseslərə tətbiqi, internet əlaqələrinin genişlənməsi,elektron informasiya daşıyıcılarının ildən-ilə artması informasiya tələbatlarının keyfiyyətlə ödənilməsində mühüm əhəmiyyət daşıyır (7).

Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın kitabxanalar qarşısına qoyduğu vəzifələri rəhbər tutaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti 2011-ci il 11 oktyabr tarixində kitabxana-informasiya sahəsində islahatların aparılması ilə bağlı olaraq, "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının,habelə şəhər, qəsəbə kütləvi, uşaq, gənclər kitabxanalarının və kitabxana klubların nümunəvi strukturu və ştat vahidləri"nin təsdiq edilməsi haqqında qərar verdi (9). Bu qərarın verilməsindən sonra,ölkə kitabxanalarında struktur islahatlaır aparıldı. Belə ki, kitabxanaların informasiya texnologiyaları ilə təhciz olunması,Veb-saytlarının yaradılaraq, internetə çıxışının təmin edilməsi müvəffəqiyyətlə həyata keçirilməyə başlandı.Kitabxanalarda iki yeni şöbə yaradıldı:

1. İnformasiya-resurs şöbəsi;
2. Kitabxana-bibloqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi(8).

İnkişaf etmiş müasir informasiya cəmiyyətində MKS-də biblioqrafik fəaliyyətin həyata keçirilməsi, xüsusi ilə iqtisadi region MKS-də tələbatçıların sorğularının daha dolğun şəkildə ödənilməsi prosesində informasiya texnologi-

yaların rolu əvəzsizdir. Ancaq hələ də region kitabxanalarında çatışmazlıqlar var.Təbii ki, əhalinin informasiya tələbatının keyfiyyətinin yaxşılaşdırılması üçün kitabxanalar qarşısında mühüm məsələlər durur. Kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının yaxşılaşdırılması, xüsusi ilə ixtisas təhsilli kitabxana kadrlarının bilik və bacarıqlarından səmərəl şəkildə istifadə etmək və s. Heç də təsadüfi deyildir ki,bəzi region MKS-də kitabxanalar internetə qoşulub, Veb-saytları yaradılsa da informasiya tələbatçısı kitabxananın xidmətindən yararlana bilmir.Bunun bir çox səbəbləri var.Ən başlıcası isə ixtisas təhsilli kitabxana kadrlarının çatışmamasıdır.

**Məsələnin izahı:**Respublikamızda kitabxana-informasiya sahəsinə dövlət qayğısının təzahürü kimi, ölkə kitabxanalarında aparılan struktur islahatlar və kitabxana şəbəkələrinin informasiya texnologiyaları ilə təmin edilməsi, onların internetə qoşulması və Veb-saytlarının yaradılması əhalinin informasiya təminatının yüksəldilməsində müsbət irəliləyiş kimi qiymətləndirilməlidir. Son zamanlar Azərbaycan Dövlət Statistika Komitəsi tərəfindən elmin, təhsilin və mədəniyyətin müxtəlif sahələrinin inkişaf dinamikasını izləmək və alınan nəticələri bülleten şəklində nəşr etmək, mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana şəbəkələrinin də müasir vəziyyətini öyrənmək baxımından əhəmiyyətlidir.

Azərbaycan Dövlət Statistika Komitəsi tərəfindən 2015-2016-cı illərdə, "Elm, Təhsil və Mədəniyyət" adlı statistik hesabat nəşr edilmişdi. Həmin statistik hesabat .2000-2015-2016-cı illəri əhatə edirdi. Hesabatda illər üzrə kütləvi kitabxanaların sayı, fondu, oxucusu, kitab verilişi və s. məsələlər öz əksini tapmışdı. Faktiki olaraq, ölkədə fəaliyyət göstərən kütləvi kitabxanaların bu illər ərzində inkişaf tendesiyasını izləmək mümkün olmuşdu.

Azərbaycan Dövlət Statistika Komitəsi 2019-cu ildə, 1990-2015-2019-cu illəri əhatə edən daha bir statistik bülleten nəşr etmişdir. Burada yenə "Elm,Təhsil və Mədəniyyət" üzrə statistik hesablamalar aparılmışdır. Bu zaman artıq 90-cı illərdən başlayaraq məlum sahələrin araşdırılması və bu sahədə alınan nəticələrin bülletendə öz əksini tapması diqqətə alınmışdır. 2000-2015-2016-cı illəri əhatə edən statistik hesablamalara əsasən, 2015-ci ildə ölkəmizdə kütləvi kitabxanaların sayı 3242, fondunun həcmi 32,6 milyon nüsxə olmuşdur.

Son statistik hesablamada 2016-cı ildən başlayaraq 2019-cu ilə qədər kütləvi kitabxanaların illər üzrə vəziyyətinə nəzər salaq: 2016-cı ildə kütləvi kitabxanaların sayı 3088, fondu 32,5 milyon nüsxə, 2017-ci ildə kütləvi kitabxanaların sayı 2978, fondunun həcmi 32,2 milyon nüsxə, 2018-ci ildə kütləvi kitabxanaların sayı 2942, fondunun həcmi 31,8 milyon nüsxə, 2019-cu ildə 2927 kütləvi kitabxana, fondunun həcmi cəmi 31,6 milyon nüsxə olmuşdur. Qeyd etmək lazımdır ki,bu kütləvi kitabxanalar yalnız Mədəniyyət Nazirliyi tabeliyində fəaliyyət göstərən MKS-lərin filialları olan kütləvi kitabxanalardır.

Gəncə-Qazax iqtisadi rayonu iqtisadi potensialına, sosial-iqtisadi və mədəni inkişafına görə Abşeron iqtisadi rayonundan sonra ölkənin inkişaf etmiş

ikinci iqtisadi rayonudur. İqtisadi rayonun tərkibinə 9 inzibati rayon və iki şəhər daxildir. İqtisadi rayonda əhalinin ümumi sayı (1 yanvar 2020-ci il) 1294,1 min nəfərdir. Əhalinin region üzrə orta sıxlığı hər kvadrat kilometrə 105 nəfər təşkil edir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin son hesablamalarına görə Gəncə-Qazax iqtisadi rayonunda 2015-ci ildən 2019-cu ilə qədər kütləvi kitabxanaların vəziyyəti belə olmuşdur: 2015-ci ildə iqtisadi regionda 511 kütləvi kitabxana olmuş, fondunun həcmi 3988,8 nüsxə təşkil etmişdir. Müvafiq olaraq 2016-cı ildə kütləvi kitabxanaların sayı 477 fondunun həcmi 3998,0 nüsxə, 2017-ci ildə 456 kütləvi kitabxana, fondunun həcmi 3990,0 nüsxə, 2018-ci ildə 452 kütləvi kitabxana, fondunun həcmi 3926,9 nüsxə, 2019-cu ildə isə 450 kütləvi kitabxana, fondunun həcmi 3963,7 nüsxə olmuşdur. Buradan belə nəticəyə gəlmək olur ki, Gəncə -Qazax iqtisadi rayonunda 2015-2019-cu illər ərzində kütləvi kitabxanaların həm sayı, həm də fondunun həcmi azalmışdır.

İqtisadi region üzrə əhalinin hər min nəfərinə orta hesabla nə qədər informasiya resursunun düşməsi də hesablanıb: 2015-ci ildə hər min nəfərə 3182 nüsxə, 2016-cı ildə 3160 nüsxə, 2017-ci ildə 3130 nüsxə, 2018-ci ildə 3058 nüsxə, 2019-cu ildə 3063 nüsxə təşkil etmişdir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində biblioqrafik fəaliyyətin vəziyyətini Gəncə-Qazax iqtisadi rayonunun mədəni mərkəzi olan Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxna Sisteminin əsasında araşdıracağıq. Qeyd etmək lazımdır ki, 1990-2015-2019-cu illəri əhatə edən statistik hesablamalarda Gəncə şəhərində kütləvi kitabxanaların sayının illər üzrə göstəricisi verilmişdir: 2015-ci il üzrə 26 kütləvi kitabxana fəaliyyət göstərmiş və fondun həcmi 404,3 nüsxə təşkil etmişdir. 2019-cu ilə qədər kütləvi kitabxanaların sayı dəyişməsə də, fondun həcmi artmışdır. Hazırda Gəncə şəhərində 25 kütləvi kitabxana fəaliyyət göstərir. Onların fondunun həcmi 440,5 min nüsxədir ( 12).

Gəncə şəhərində ilk kitabxana 1934-cü ildə şəhər Maarif şöbəsi tərəfindən təşkil edilmişdir.1976-cı ildən Mərkəzləşdirilmiş Kitabxana Sistemi kimi fəaliyyət göstərir. MKS-in kitab fondunun həcmi 401825 nüsxə olmaqla, Azərbaycan dilində fondun həcmi cəmi 192712 nüsxə təşkil edir. Latın qrafikalı ədəbiyyat 51819 nüsxə, kiril qrafikalı ədəbiyyat isə 140893 nüsxədir. Kitabxana fondunda rus dilində 205656 nüsxə və digər xarici dillərdə 2741 nüsxə fond var.Digər informasiya resurslarının həcmi 1825 nüsxədir. Mərkəzi Kitabxananın şöbələri:1) Abonement şöbəsi; 2) Oxu zalı; 3) Metodika və biblioqrafiya şöbəsi; 4) Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırması şöbəsi; 5) İncəsənət şöbəsi; 6) İnformasiya-resurs şöbəsi; 7)Komplektləşdirmə və kitabişləmə şöbəsi; 8) Uşaq şöbəsi.

Abonement şöbəsi bütün oxucu qruplarına xidmət göstərir. Şöbədə açıq rəf üsulu ilə informasiya tələbatçılarının fonddan asan və geniş istifadəsi üçün şərait yaradılmışdır. Kitab fondu 46102 nüsxə, Azərbaycan dilində 11684 nüsxə, latın qrafikalı ədəbiyyat 2069 nüsxə, kiril qrafikalı ədəbiyyat 9615 nüs-

xədir. Rus dilində ədəbiyyat 34392 nüsxə, xarici dillər üzrə cəmi 26 nüsxə ədəbiyyat var.

Oxu zalı 52 nəfərlik yerdən ibarətdir. Burada beş illik dövrü mətbuat və köməkçi kitab fondu oxuculara xidmət edir. Kitab fondunu əsasən elmi kitablar, dərsliklər, avtoreferatlar, ensiklopediyalar və lüğətlər təşkil edir. Oxu zalında Mərkəzi Kitabxananın bütün kütləvi tədbirləri keçirilir. Oxu zalının kitab fondunun həcmi 14146 nüsxədir. Azərbaycan dilində ədəbiyyat 4795 nüsxə, latın qrafikalı ədəbiyyat 2040 nüsxə, kiril qrafikalı ədəbiyyat 2755 nüsxə, Rus dilində ədəbiyyat 9255 nüsxə, xarici ədəbiyyat cəmi 96 nüsxə təşkil edir.

Gəncə MKS-in Metodika və biblioqrafiya şöbəsi bütün şöbə və filialların işini tənzimləyir, bütün bölmələrin işinə nəzarət edir və eyni zamanda qabaqcıl iş təcrübəsini öyrənərək kitabxanalarda tətbiq edir. Kitabxana fondunun zənginləşdirilməsi,əhalinin intellaktual potensialının, bilik səviyyəsininin inkişafı üçün şəraitin yaradılmasının təmin edilməsi məqsədi ilə MKS-in struktur bölmələrinə tövsiyyələr verir. Şöbə hər ay kitabxana işçilərinin seminarlarını keçirir və bu seminarlarda qabaqcıl kitabxanaların iş təcrübəsini öyrənib, digər kitabxanaların işinə tətbiq edilməsinə metodik köməklik edir.

Şöbədə yazıçı və şairlərin yubileyləri, tarixi və əlamətdar günlərlə bağlı metodik məktublar və tövsiyyələr hazırlanır. Aylıq və illik plan, hesabatların düzgün işlənməsi təmin edilir. Keçirilmiş tədbirlərin müntəzəm olaraq, MKS-in internet saytında yerləşdirilməsinə nəzarət edilir. Gəncə şəhər MKS Qərb regionu üzrə metodik mərkəz olduğuna görə, metodika şöbəsi regionda yerləşən MKS-dən və bir sıra şəhər kitabxanalarından müraciət edən işçilərin yazılı və şifahi sorğularını yerinə yetirir.

Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi kitabxanaların elektron kataloqunun idarə olunması, elektron resursların bazalarının yaradılması, elektron kataloqun "Kataloqlaşdırma", "Komplektləşdirmə", "Oxucu", "Kitab verilişi" modullarının işini təşkil etmək, habelə "Administrator" modulu vasitəsi ilə sistemin fəaliyyətinə nəzarət və koordinasiya etmək funksiyasını həyata keçirməklə MKS-in Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işini təşkil edir.

İnformasiya-resurs şöbəsi kitabxananın Veb-saytının idarə olunması (veb-saytın operativ idarə yeniləşməsi, əlavə və dəyişikliklərin edilməsi, domen və hostinqin fəaliyyətinə nəzarət), şəbəkənin antivurus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir, nəzarət funksiyasını həyata keçirir. Şöbə kitabxananın Elektron kitabxanasının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini təmin edir. Habelə dövrü mətbuatın təsvirini "Kataloqlaşdırma" modulu vasitəsi ilə həyata keçirir. Kitabxana biblioqrafiya proseslərinin avtomatlaşdırması şöbəsinin həyata keçirdiyi "Katoloqlaşdırma" modulunun bazasından istifadə edərək elektron resursların bazalarının yaradılmasını həyata keçirir.

Gəncə şəhər MKS-nin Komplektləşdirmə və kitabişləmə şöbəsi 1976-cı ildən yaradılıb. Şöbə komplektləşdirmə, ədəbiyyatın silinməsi və kataloqların

tərtibi məsələsi ilə məşğul olur. MKS-in şöbə və filiallarına əlifba və sistemli kataloq kartoçkaları hazırlayır. Bu kartoçkalar 2008-ci ildən elektron formada "İrbis-64" elektron kataloqunda təsvir olunur. Sistemin əlifba, sistemli kataloqları komplektləşdirmə və kitabişləmə şöbəsində hazırlanır. Həmçinin bu şöbə MKS-nin bütün struktur bölmələrinin dövrü mətbuata abunə yazılmasını təmin edir.

Gəncə şəhər MKS-də aparılan biblioqrafik-informasiya xidmətinin əhəmiyyəti əvəzedilməzdir.Biblioqrafik informasiya tələbatının həyata keçirilməsi soraq biblioqrafiya xidməti zamanı ödənilir. Bunun üçün isə ənənəvi biblioqrafik xidmət vasitələrindən əlavə müasir texnologiyaların imkanlarından da da istifadə olunur. Gəncə şəhər MKS-nin filialları yalnız öz fonduna əsaslanaraq yüksək ixtisaslı mütəxəssislərin biblioqrafik informasiya təminatını ödəmək imkanında olmadığından, yüksək səviyyəli kitabxanaların informasiya ehtiyatlarından da istifadə edir.

Gəncə şəhər MKS-də "İctimai Hüquqi İnformasiya Mərkəzi", "Uşaqlara xidmət", "İnsan hüquqları", "Azərbaycan Hüquqi Məlumat Bazası" yaradılmışdır.

Gəncə şəhər MKS-nin Uşaq şöbəsinin fondunun həcmi 22872 nüsxədir. Oxucularının sayı 3000 nəfər, kitab verilişi 60000 nüsxə təşkil edir. Kitabxananın fondunda ensiklopediyalar, lüğətlər, məlumat kitabları, müxtəlif sahələri əhatə edən uşaq kitabları və bədii ədəbiyyat var. Uşaq şöbəsi bir çox orta məktəblərlə birgə işləyir. Kitabxanada vaxtaşırı uşaqlara hüquqi bilikləri aşılamaq üçün "Sənin hüquq vəzifələrin", "Hüquqlarınızı bilirsinizmi?" mövzusunda tədbirlər keçirilir. "Ana dilinə dövlət qayğısı", "Azərbaycan əlifbası və Azərbaycan dili", "Milli-mənəvi irsimizin qorunması hər birimizin borcudur" və s.

Artıq bir ildən çoxdur ki, pandemiya ilə əlaqədar sosial izolyasiya şəraitində, bir-çox müəssisələr kimi kitabxanaların da fəaliyyətində, informasiya təminatının həyata keçirilməsində müəyyən dəyişikliklər olmuşdur. Belə ki, Gəncə MKS pandemiya dövründə onlayn şəkildə, " Zoom" vasitəsi ilə biblioqrafik fəaliyyətini davam etdirir:

07.03.2021-ci il tarixində Gəncə şəhər Heydər Əliyev Mərkəzi, Gəncə Dövlət Universiteti və Gəncə MKS-nin 16 nömrəli filialı ilə birlikdə 8 mart Beynəlxalq Qadınlar günü münasibəti ilə "Ülvilik, zəriflik rəmzi olan qadınlar" mövzusunda video konfrans keçirilmişdir (11).

Gənc nəslin təlim-tərbiyəsində, onların Vətənə məhəbbət ruhunda böyüməsində məktəblər qədər kitabxanaların da rolu böyükdür. MKS-in Uşaq şöbəsində "Ana dedim, qarşımda gözəl səhnə açıldı" başlığı altında onlayn şeir gecəsi keçirilmişdir. 8 mart Beynəlxalq Qadınlar günü münasibəti ilə, 27 saylı məktəb-litseyin müəllim və şagirdləri şeir gecəsi keçirmişlər. Tədbirin əvvəlində 8 mart Qadınlar Bayramının yaranma tarixi haqqında məlumat verən tədbir iştirakçıları sonra, anaya aid şeirlər səsləndirmişlər. Çıxış zamanı Mikayıl Müşfiqin "Ana" şeiri də səsləndirilib.

21.02.2021-ci il tarixində 21fevral "Beynəlxalq Ana dili günü" münasibəti ilə "Azərbaycan dili-milli varlığımızın aynasıdır" adlı onlayn şeir gecəsi keçirilmişdir.Tədbirdə Gəncə şəhər M.Füzuli adına 22 nömrəli məktəbin IV

sinif şagirdləri iştirak etmişlər.Tədbirdə ana dilinin cəmiyyətin ən dəyərli sərvəti olması vurğulanmış, hər bir xalqın inkişafı, mübarizəsi ilə onun dilinin sıx bağlı olması göstərilmişdir. Qeyd edilmişdir ki, hər bir xalq öz milli adət-ənənələrini, tarixini gələcək nəsillərə məhz dil vasitəsi ilə çatdırır.

16.02.2021-ci il tarixində Gəncə şəhər MKS-nin Uşaq şöbəsi 32 nömrəli məktəbin müəllim və şagird kollektivi ilə birgə, Azərbaycan yazıçısı Mikayıl Rzaquluzadənin "El gücü" kitabından onlayn " Ucadan oxu" təşkil etdilər.

13.02.2021-ci il tarixində MKS-in Uşaq şöbəsi 29 nömrəli tam orta məktəbin bir qrup müəllim və şagirdləri ilə birgə "Uşaq hüquqlarının təbliği" ilə əlaqədar onlayn tədbir keçirdilər.

13.02.2021-cil tarixində MKS-in Uşaq şöbəsi 26 nömrəli tam orta məktəbin müəllim və şagirdləri ilə birgə "Dünya uşaq ədəbiyyatına səyahət" adlı kitab təqdimatı keçirmişlər.

27.01.2021-ci il tarixində MKS-in Uşaq şöbəsi 29 nömrəli tam orta məktəbin müəllim və şagirdləri ilə birgə Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar ölkəmizdə elan olunan "Nizami ili" çərçivəsində "Sirlər xəzinəsi" poemasına aid olan "Kərpickəsən kişinin dastanı" əsərindən onlayn şeir saatı keçirmişdir(11).

3 fevral 2021-ci il tarixində Azərbaycan Milli Kitabxanasının Elmi tədqiqat və Metodik təminat şöbəsinin təşəbbüsü ilə Gəncə şəhər MKS-nin təşkilatçılığı ilə bölgələrimizdə fəaliyyət göstərən kitabxana əməkdaşlarının da iştirak etdiyi "Pandemiya dövründə kitabxanaların fəaliyyəti" mövzusunda video formatda görüş keçirilmişdir. Video görüşü giriş sözü ilə Gəncə şəhər MKS-in direktoru açmış, tədbir iştirakçılarını salamlamış və şanlı ordumuzun tarixi qələbəsi münasibəti ilə təbriklərini çatdırmış, Vətən uğrunda canından keçən qəhrəman oğullarımıza rəhmət, qazilərimizə isə tezliklə sağalmaları üçün şəfa diləmişdir. Hazırkı pandemiya şəraitində Gəncə şəhər MKS-də keçirilən onlayn tədbirlərdən kitabxananın hazırladığı video çarxlardan, informasiya tələbatçılarına göstərdilən onlayn xidmətlərdən danışmışdır.Onlayn görüş "Googlemeet" proqramı ilə keçirilmişdir.

Gəncə Regional Mədəniyyət Mərkəzi Gəncə şəhər MKS-nin Uşaq şöbəsi ilə birlikdə görkəmli şair Abdulla Şaiqin anadan olmasının 140 illiyi ilə əlaqədar onlayn kitab xülasəsi keçirmişdir. Şair haqqında məlumat verildikdən sonra, onun hekayələrinin epik növün klassik nümunəsi olması qeyd edilmişdir: "Məktub yetişmədi", "Köç","Daşqın" və s. hekayələrinin adı çəkilmişdir. Tədbirdə görkəmli şairin əsərlərinin Azərbaycan bədii nəsrini mövzu, janr, problematika baxımından zənginləşdirməsi diqqətə çatdırılmışdı (11).

MKS-in fəaliyyətinin əsas predmeti informasiya, elm, mədəni-maarif və təhsil işidir. Buraya fondların formalaşdırılması, elmi cəhətdən işlənməsi və mühafizəsi, kitabxanalardan istifadə edənlərə kitabxana, informasiya və sorğu-biblioqrafiya xidmətlərinin göstərilməsi, kitabxanalararası və Beynəlxalq Kitabxanalararası Abonementin təşkili, kitabxanaların elmi-metodik təminatı daxildir.

MKS-lərin quruluşunun tipik bölmələri Mərkəzi Kitabxana sisteminin baş müəssisəsidir. Onun vəzifələri-sistemə rəhbərlik etmək, metodiki köməklik göstərmək, vahid fond yaratmaq və onun istifadəsinin təşkili, filiallar üzrə yeni kitabların paylanması, sistemdaxili kitab mübadiləsi, mərkəzi məlumat biblioqrafiya aparatının və məlumat xidmətinin formalaşdırılması və s.-dir.

MKS-lərə mərkəzi rayon yaxud şəhər kitabxanası, Mərkəzi Uşaq Kitabxanası və kitabxana filialları daxildir. MKS-in baş müəssisəsi kimi Mərkəzi Kitabxana bütün kitabxanaların fəaliyyətinə rəhbərlik edir (4).

MKS-lər fondların komplektləşdirilməsini, sistemləşdirilməsini, elmi və texniki cəhətdən işlənməsini, qorunub saxlanmasını təmin etməklə, informasiya tələbatçılarına kitabxana, informasiya, biblioqrafiya, virtual xidmətlər sistemini təşkil edir. Kitabxanaların fonduna daxil olan ənənəvi və elektron kataloq, kartotekada infomasiyanın əks etdirilməsi, axtarışı və istifadəsi üçün elektron vasitələri əhatə edən informasiya-axtarış sistemini yaratmaqla, onu daim təkmilləşdirir.

MKS-lər əhalinin informasiya təminatının həyata keçirilməsi, informasiyadan sistemli ictimai istifadəni təşkil etmək, təhsil, fasiləsiz təhsil, ümumi mədəni inkişaf səviyyəsinin yüksəldilməsinə kömək etməklə, kitabxana sahəsinin bütün mütərəqqi formalarından istifadə edir. Eyni zamanda MKS-in tərkibinə daxil olan kitabxana filiallarına metodik, təşkilati və biblioqrafik kömək edir, inkişaf etmiş müasir cəmiyyətin bütün sahələrində cərəyan edən proseslər barədə informasiya əldə edərək ənənəvi və elektron-informasiya daşıyıcılarından tələbatçıların istifadəsini təmin edir.

MKS-lərin fondunda olan Azərbaycan və dünya ədəbiyyatı nümunələrinin, bütün kitab sərvətlərinin, digər informasiya vasitələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasını, onların geniş təbliğini təmin edir (7).

İnformasiya texnologiyalarının tətbiq olunması elektron daşıyıcıya köçürülmüş informasiya mənbələrinin saxlanılmasına və tələbatçıların istifadəsinə açıqlığını təmin etmiş olur. Belə ki, MKS-də biblioqrafik məlumat bazası, elektron informasiya mənbələri formalaşdırılaraq kitabxana saytları vasitəsi ilə informasiya tələbatçılarına xidmət göstərir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri mədəni mərkəzlər kimi yerli mədəniyyətin öyrənilməsi, saxlanması və qorunmasını təmin etməklə, milli-mədəni dəyərlərin yayılmasına da kömək edir. O cümlədən, regional kitabxanalar regionun yazıçı və şairlərinin əsərlərinin təqdimatını keçirməklə, xalq sənətinin tanınmış ustalarının əsərlərinin ən yaxşı nümunələrinin sərgilərinin təşkili, region haqqında yazılmış qiymətli ədəbi nümunələrin informasiya tələbatçılarına çatdırılmasını təmin edir. Eyni zamanda milli və regional kitab mədəniyyəti irsini qorumaqla, diyarşünaslığa aid ədəbi mənbələrin biblioqrafiyasını tərtib edirlər.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri kitabxana işinin əlaqələndiricisi və metodiki, elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərirlər. MKS-lər metodiki mərkəz kimi bütün region kitabxana filiallarının resurs mərkəzinə çevrilir (4).

Elmin inkişafı, onun yeni problemlərinin yaranması biblioqrafik informasiya xidmətinin təşkilinə, forma və məzmununa tələbatın artması zərurətini yaratmışdır. Biblioqrafiyanın əsas vəzifəsi oxucuya onu maraqlandıran ədəbiyyata dair tam, dolğun, dəqiq və operativ məlumatı çatdırmaqdır. Bunun üçün isə hər bir kitabxanada olduğu kimi, MKS-də də biblioqrafik işi düzgün təşkil etmək və elmi şəkildə əsaslandırılmış soraq-biblioqrafiya aparatı yaratmaq lazımdır. MKS-lərdə də biblioqrafik fəaliyyətin əsas istiqamətlərinə aşağıdakılar daxildir:1)Soraq-biblioqrafiya aparatının (SBA) təşkili; 2) Biblioqrafik vəsaitlərin tərtibi; 3)Biblioqrafik informasiya xidməti; 4) Soraq-biblioqrafiya xidməti; 5) Tövsiyə biblioqrafiya fəaliyyəti; 6) Metodiki iş və məsləhətlər; 7) Biblioqrafik biliklərin təbliği; 8) Kitabxanaların elmi-tədqiqat fəaliyyəti .

Cəmiyyətin informasiya ehtiyatları sənədlər şəklində maddiləşir və bununla da ondan məqsədyönlü sosial istifadə üçün imkan yaranır. İnformasiya ehtiyatlarının ən mühüm tərkib hissələrindən biri biblioqrafik informasiyadır. O biblioqrafiyaşünaslığın nəzəri təhlilində mərkəzi kateqoriya olmaqla, ilkin çıxış nöqtəsi kimi nəzərə alınır.Məhz buna görə biblioqrafik fəaliyyətin ümumi nəzəri əsası hesab edilir.

Ümumiyyətlə,biblioqrafik informasiya sənədlər haqqında xüsusi qaydaya əsaslanan, sənədlər və onlardan istifadə edənlər arasında uyğunluğun həyata keçirilməsini təmin edən mütəşəkki informasiyadır. Biblioqrafik informasiya anlayışının konkretləşdirilməsi onun funksional mahiyyətinin dəqiqləşdirilməsi və differensasiyası ilə bağlıdır (10).

Məlumdur ki,biblioqrafik fəaliyyətin obyekti dedikdə, sənədlər və informasiya istifadəçiləri nəzərdə tutulur. Yəni onun məhsulu olan biblioqrafik informasiya biblioqrafiyalaşdırma prosesinin bilavasitə obyekti olan sənədlərə əsaslanır. Biblioqrafik informasiya yalnız sənədlərin köməkliyi ilə, cəmiyyətin, müxtəlif fəaliyyət sahələrində çalışan üzvlərinin müvafiq informasiya tələbatlarının ödənilməsini təmin edir.Cəmiyyətin informasiyalaşdırılması sisteminin dinamikasında biblioqrafik informasiya tələbatının axırıncı yerdə durması onun müstəqil olmadığını və sənədlərlə əlaqədar olduğunu , onlara dair tələbatların ödənilməsinə xidmət etdiyini göstərir. Buradan belə nəticə çıxır ki, sənəd tələbatı sənəd kommunikasiyaları sisteminin tərkib hissəsi olan biblioqrafik fəaliyyət sisteminin inkişafında əsas və başlıca stimuldur (8).

MKS-də biblioqrafik-informasiya xidmətinin bir-çox xüsusiyyətləri vardır:

1. Bütün sistem üzrə biblioqrafik-informasiya xidmətinə rəhbərlik edən Mərkəzi kitabxananın təşkiledici rolu;
2. Ayrı-ayrı biblioqrafik proseslərin mərkəzləşdirilmiş şəkildə yerinə yetirilməsi;
3. Sistemin yarımbölmələrinin ixtisaslaşmış fəaliyyəti;

4. Texnoloji sənədlərin vahidləşdirilməsi;
5. Sistemin Mərkəzi kitabxanası ilə, filial kitabxanaları arasında ciddi istehsalat əlaqəsinin olması (2).

**Nəticə.**

MKS-lər gələcək nəsillər üçün imkan daxilində tam sənədli informasiya formalaşdırmalı və qoruyb saxlamalıdır. Eyni zamanda informasiya və sənədlərə sərbəst çıxışı reallaşdırmaqla, informasiya tələbatçılarının elm və mədəniyyətin nailliyyətlərinə və dəyərlərinə yiyələnməsi üçün şərait yaratmalıdırlar.

MKS-lər mədəni irsin qorunmasına və onun hamının üzünə açıq olduğunun təmin edilməsinə görə xüsusi məsuliyyət daşıyırlar. Onlar öz ərazilərinin kitabxana-informasiya fondunu yaratmaqla, bilikləri qoruyub saxlayır, elektron mühitin sabitliyinə təminat verirlər. Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində belə kitabxanalara Mərkəzi Kitabxana statusu verilir. Bu status həm də regional kitabxanalar üçün də xarekterikdir. Bu kitabxanalar da-müəyyən ərazinin mənafeyinə tabelik, regional fəaliyyətin miqyası, region ərazisində və onun haqqında nəşr olunmuş sənədlərin toplanması, saxlanması və ictimai istifadəyə verilməsinə görə məsuliyyət daşıması, diyarşünaslıq informasiya resurslarının yaradılması və onun açıqlığının təmin edilməsini həyata keçirir.

MKS-lər fondlarında olan nadir kitabları rəqəmsallaşdırmalıdırlar. Onların fəaliyyətinin mühüm istiqamətlərindən biri də kitabxana diyarşünaslığır. Elektron diyarşünaslıq resurslarının yaradılması və onun informasiya tələbatçıları tərəfindən istifadəsinin təmin edilməsini həyata keçirməlidir (8).

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı.//Azərbaycan.-2007.-21 aprel.
2. Bayramova İ.Z. Regionların kitabxana-informasiya təminatı sistemi: Dərs vəsaiti.-Bakı-2019,208 s.
3. İsmayılov N.İ.,Ağayeva X.T. Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası: Dərs vəsaiti.-Bakı:Bakı Universitetinin nəşriyyatı,2017.-181s.
4. İsmayılov X. İ. Kitabxana işinin təşkili və idarə edilməsi: (Dərslik).-Bakı, "Nurlar",2009,- 392 s.
5. Vəzirova R.Ə. Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində Biblioqrafik fəaliyyətin təşkili məsələləri.// Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2009.-№1(24).s.113-119.
6. Medeniyyet.az./page/news/mct.
7. qov.az/medias/media/other/419/kitabxana-esasname.pdf.
8. anl.az/down/mks-vazife-telimati
9. e-qanun.az/framework
10. anl.az/down/ meqale
11. ganja.mctqov.az
12. stat.gov.az./source/education/

***Ирада Байрамова***

## *СОВРЕМЕННОГО СОСТОЯНИЯ БИБЛИОГРАФИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТЬ ЦЕНТРАЛИЗОВАННАЯ БИБЛИОТЕЧНАЯ СИСТЕМА (НА ПРИМЕРЕ ЦБС ГОРОДА ГЯНДЖА)*

### *РЕЗЮМЕ*

*В статье анализируется развития библиографическкой деятельности Централизированной Библиотечной Системы ( на примере ЦБС города Гянджа).*

*О также о роле библиотек в повышение интеллектуально-культурного развития уровнья населения.*

***Ключевые слова:*** Библиотечно-информационное обеспечение; информационные ресурсы; библиотечный фонд.

***Irada Bayramova***

## *CENTRALIZED LIBRARY SYSTEM OF THE MODERN STATE OF BIBLIOGRAPHIC ACTIVITY (ON A MODEL CITY OF GANJA CLS)*

### *SUMMARY*

*This Article deals with development of Centralized Library Systems (on a model city of Ganja CLS).At the of libraries becase of development of peoples intellectual-cultural level the reflection of states care to it.*

***Key words:*** Library-information provision; information resources; the library fond.

**Rəyçi:** p.ü.f.dok.,dos. X.T.Ağayeva